# Vətən sevdalısına ehtiram

44 günlük haqq savaşımızda hünər göstərib adını qanı hesabına tarixə yazan minlərlə qəhrəman oğlanlardan biri də Elnur İman oğlu Əsədullayevdir. 22 yaşında çəkinmədən sinəsini Vətənə sipər edib şəhidlik zirvəsinə ucalan Lerikin qartal balası ürəklərdə yaşamaqla əbədi bir ömür qazandı. Dağlar diyarında kiçik də, böyük də öz ölümsüzlüyə qovuşan qəhrəman oğlunu günündə rayon rəsmiləri, ictimaiyyət nümayəndələri və şəhidin ailə üzvləri qəhrəman Vətən sevdalısının məzarına baş çəkdilər, önünə gül-çiçək dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etdilər. Həmçinin söhbət zamanı bildirildi ki, Elnur nəsillərə nümunə ola biləcək bir qəhrəmanlıq göstərdi. Onun kimi, qeyrətli Vətən övladların qan hesabına 30 il düşmənə əsir dü-





həmişə böyük ehtiramla yad edir və onun xatirəsini əziz tutmağı müqəddəs borc bilirlər.

Azərbaycanın yeni, şanlı tarixini yaradanlarından olan, igidliyi dillərdə dastana dönən, ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Füzulinin azad olumasına görə", "İgidliyə görə" və "Vətən uğrunda" medallarına layiq görülən şəhid kiçik gizir Elnur İmran oğlu Əsədullayev əlçatmaz unyetməz ulduz ömrü yaşaya-yaşaya 27 yaşına çatdı. Doğum

şən Qarabağımız azad olundu. Bu qazanılan zəfər Azərbaycan və dünya hərb tarixinə qızıl hərflərlə yazıldı. Elnurun şərəfli ölümü xalqa şərəf gətirdi, Vətəni, torpağı bizə necə sevməyi öyrətdi. Məhz buna görə də Elnur cismə aramızda olmasa da, Azərbaycan var olduqca mənən qəlblərdə yaşayacaq..

Qeyd edək ki, 1998-ci ildə Lerik şəhərində dünyaya göz açan Elnur Əsədullayev həyatı başa düşə gündən qəlbində Qarabağımıza qəsd edən erməni dığalarına qarşı nifrət hissləri yaranır. Ordu sıralarına yola düşəndə birinci amalı məqam düşən kimi onlardan qisas almaq olur. Cəbhə bölgəsində nümunəvi xidməti Elnurə böyük hörmət qazandırır. 18 yanvar 2018-ci ildə hərbi xidmətini başa vuran Elnur evinə qayıdır. Vətən torpaqların azadlığı naminə 15 iyun 2018-ci ildə könüllü olaraq yenidən hərbiyə gedir və Beyləqan rayonunda manqa komandiri vəzifəsində xidmət etməyə başlayır. Kiçik gizir Elnur verilən bütün tapşırıqları vaxtında, düzgün yerinə yetirir. Manqa komandiri vəzifəsindən tank komandiri vəzifəsinə yüksəlir.

İkinci Qarabağ müharibəsində Elnurun döyüş yolu qaynar bölgələrdən başlanır. İlk andan düşmənin üstünə qartal tək şığıyır, ona sarsıdıcı zərbələr endirərək xeyli sayda canlı qüvvəsini, texnikasını məhv edir. Dığalara qan udduran igid neçə-neçə sınaqdan zəfərlə çıxır. Oktyabr ayının 30-da Füzuli istiqamətində gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhidlik məqamına yüksəlir.

**Zəfər ORUCOĞLU**